AZƏRBAYCAN RESPUBLİKASININ
QEYRİ-HÖKUMƏT TƏŞKİLATLARINA
DÖVLƏT DƏSTƏYİ AGENTLİYİ

MİRAS
Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi

mədəni irs ustad məktəbi

# MƏDƏNİ İRS BEYNƏLXALQ USTAD MƏKTƏBİ

## TƏDRİS VƏSAİTİ

Hazırlayan:
Dr. Fariz XƏLİLLİ

BAKI - 2025

Kitabın məzmunu “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin cavabdehliyindədir, bu baxımdan kitabın məzmunu Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin mövqeyini əks etdirmir.

Kitab Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə hazırlanmışdır.

Xəlilli, Fariz. (Hazırlayan). (2025). Mədəni İrs Beynəlxalq Ustad Məktəbi: Tədris vəsaiti. Bakı: AFPoliqrAF.

16-25 iyul 2025-ci il tarixlərində “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin Mədəni İrs Beynəlxalq Ustad Məktəbi ilk dərslərinə başlamışdır. Dərslər müxtəlif mədəni irs mövzularında olub, Azərbaycan, Türkiyə, İtaliya irs mütəxəssisləri tərəfindən aparılmışdır. Təlimçilərin mühazirələri tədris vəsaiti şəklində nəşrə hazırlanmışdır.

Elmi redaktor: Prof.Dr. Qafar Cəbiyev
Rəyçilər: Prof.Dr. Kübra Əliyeva
Prof.Dr. Şikar Qasımov

Tərcümə: Fariz Xəlilli
Dizayn: İntiqam Məhəmmədli
Koordinator: Məleykə Hüseynova
Fotolar: Nicat Nağızadə, Fariz Xəlilli, Elmira Abbasova, Fidan Xəlilli, Fərid Xəlilli

ISBN: 978-9952-8561-2-5

© “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi, 2025

# MÜNDƏRİCAT

Prof.Dr. Qafar Cəbiyev - MƏDƏNİ İRS USTAD MƏKTƏBİ KURSUNA GİRİŞ VƏ YA MƏDƏNİ İRSİN TƏDQİQİ, QORUNMASI VƏ TƏŞVİQİ İSTİQAMƏTİNDƏ PRİORİTETLƏR: ƏNƏNƏVİ YANAŞMALAR VƏ YENİ ÇAĞIRIŞLAR ........ 6
https://doi.org/10.30546/978-9952.2025.1006

Prof.Dr. Luici Skrinzi - ZƏRGƏRPALAN HAMAMI: BEYNƏLXALQ TƏDQİQAT VƏ KONSERVASİYA MİSSİYASI ........ 18
https://doi.org/10.30546/978-9952.2025.1018

Dr. Fariz Xəlilli - MƏDƏNİ İRS ABİDƏLƏRİNDƏ ARXEOLOJİ TƏDQİQATLAR ........ 25
https://doi.org/10.30546/978-9952.2025.1025

Məleykə Hüseynova - MƏDƏNİ İRSİN QORUNMASI SAHƏSİNDƏ MİLLİ VƏ BEYNƏLXALQ TƏNZİMETMƏ ........ 43
https://doi.org/10.30546/978-9952.2025.1043

Dos.Dr. Günel Seyidəhmədli - AZƏRBAYCANIN TARİX-MƏDƏNİYYƏT QORUQLARI ........ 65
https://doi.org/10.30546/978-9952.2025.1065

Prof.Dr. Şikar Qasımov - AZƏRBAYCANIN QEYRİ-MADDİ MƏDƏNİ İRSİ VƏ ONUN YUNESKO-DAKI YERİ ........ 87
https://doi.org/10.30546/978-9952.2025.1087

Dos.Dr. Pərvin Ahənçi - TARİXİ-MƏDƏNİ İRSİN RƏQƏMSALLAŞDIRILMASI ........ 103
https://doi.org/10.30546/978-9952.2025.1103

Dos.Dr. Həbibə Əliyeva - MƏDƏNİ İRS ABİDƏLƏRİ ÜZƏRİNDƏKİ EPİQRAFİK TƏDQİQATLAR ........ 129
https://doi.org/10.30546/978-9952.2025.1129

Dr. Şəhla Xəlilli - DÜNYA YADDAŞI: ƏLYAZMA İRSİ ........ 142
https://doi.org/10.30546/978-9952.2025.1142

Dr. Nəzmin Cəfərova - MUZEYLƏR MƏDƏNİ İRSİN KEŞİYİNDƏ ........ 154
https://doi.org/10.30546/978-9952.2025.1154

Gülşən Hüseynova - FÖVQƏLADƏ HALLAR ZAMANI MƏDƏNİ İRSİN MÜHAFİZƏSİ ........ 185
https://doi.org/10.30546/978-9952.2025.1185

Arzu Həsənli - MƏDƏNİ İRSİN SOSİALLAŞMASI VƏ ONUN CƏMİYYƏT ÜÇÜN ƏHƏMİYYƏTİ ........ 205
https://doi.org/10.30546/978-9952.2025.1205

Aidə Məlikova - MƏDƏNİ İRS TURİZMİ ........ 211
https://doi.org/10.30546/978-9952.2025.1211

Prof.Dr. Zahidə Məmmədova, Dos.Dr. Məhəmməd Nurməmmədov - MEMARLIQ ABİDƏLƏRİNİN BƏRPASI VƏ KONSERVASİYASI ........ 224
https://doi.org/10.30546/978-9952.2025.1224

Cəlaləddin Küçük, Nadirə Minə Yar - BƏRPA VƏ KONSERVASİYADA MATERİALLAR ........ 246
https://doi.org/10.30546/978-9952.2025.1246

Əfqan Quliyev - BƏRPA LAYİHƏLƏRİNİN HAZIRLANMASI VƏ UĞURLU TƏCRÜBƏLƏR ........ 259
https://doi.org/10.30546/978-9952.2025.1259

Prof.Dr. Qafar Cəbiyev, Dr. Fariz Xəlilli, Dr. Elmira Abbasova - Bakı şəhəri Yasamal rayonu Həmidağa Hüseynzadə küçəsində yerləşən Hamam binası daxilində və ətrafında konservasiya və təmizləmə işləri çərçivəsində aparılan arxeoloji tədqiqatların HESABATI ........ 263
https://doi.org/10.30546/978-9952.2025.1248

# FÖVQƏLADƏ HALLAR ZAMANI MƏDƏNİ İRSİN MÜHAFİZƏSİ

Gülşən Hüseynova
Tədqiqatçı
"Miras" Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi
https://doi.org/10.30546/978-9952.2025.1185

**Giriş.** Müasir mədəniyyətin inkişafı mədəniyyət abidələrində və incəsənət əsərlərində öz əksini tapan maddi və qeyri-maddi mədəni irsin qorunub saxlanılması ilə üzvi surətdə bağlıdır. İnsan inkişafının müxtəlif dövrlərində yaratdığı və gələcək nəsillərə ötürmək istədiyi tarix və mədəniyyət abidələri ilə milli kimliyini, bəşər tarixində özünəməxsusluğunu bizə anlatmağa çalışır. Hər abidə maddi və qeyri-maddi mədəni irsimizin bir cilvəsi olmaqla, bizə tarixi keçmişimizi, adət-ənənələrimizi, inanc və duyğularımızı, hiss və həyəcanlarımızı, bir sözlə yaşantılarımızı, dünyagörüşümüzü parlaq surətdə nümayiş etdirir. Hər saniyəsi bir kəşflə bağlı olan dünyamızı hərəkətə gətirən mədəniyyət insanın yeniliyə meyli, sənətin tarixiliklə müasirliyi özündə əks etdirməsi, dəyişən adət-ənənələrdə kökdən uzaqlaşmamaq səyləri ilə inkişafa öz töhfəsini verir. Lakin gözəlliklə eybəcərliyin, yaratmaqla dağıtmağın paralel inkişafını gözə almaq mədəni irsimizin tədqiqi, təşviqi və təbliği ilə məşğul olan hər bir şəxsin vətəndaşlıq borcudur. İrsimizin dünyada olduğu kimi tanınması, bayağılıqdan uzaq inkişafı və müasir texnologiyaları tətbiq etməklə kompleks şəkildə tədqiqi vacibdir. Haqqında söhbət açdığımız "Mədəni irs və fövqəladə hallar" mövzusu da özlüyündə məhz kompleks yanaşmanı tələb edir.

Müasir yaşayış məskənləri, xüsusilə şəhərlər təhlükə ilə doludur: yüksəkgərginlikli magistral elektrik xətləri, böyük gücə malik magistral su kəmərləri, nəqliyyat magistralları, qaz və maye yanacağı saxlancları, potensial təhlükəli maddələrlə işləyən texnoloji prosesli sənaye... Bu məqamda coğrafi baxımdan insanların yaşayış yerlərində qərar tutan mədəni irs obyektləri xüsusilə istər təbii amillər nəticəsində, istərsə də hərbi münaqişələr fonunda baş verən fövqəladə hallarda həssas mövqe tutmaqdadır. Ona görə də mədəni irsin təhlükəsizliyinin təmin olunması problemi gündən-günə daha da aktuallaşır və böyük əhəmiyyət kəsb edir. Müharibə, zəlzələlər, subasmalar, daşqınlar, yanğınlar, şəhərsalma fəaliyyətində idarəolunmaz proseslər, nəzarətdən kənar qalan turizm və digər təzahürləri özündə ehtiva edən fövqəladə hallar dünyada irs abidələrinin dağılmasına səbəb olmaqdadır və bununla əlaqədar kifayət qədər nümunə gətirmək mümkündür.

Nəhayət mədəniyyət müəssisələri mədəni irsin mühafizəsi üzrə plan və strategiyaların hazırlanması istiqamətində birlikdə çalışmaların vacibliyini anlayırlar. Lakin insan fəaliyyəti və ya təbii fəlakətlər nəticəsində mədəniyyət abidələrinin real dağılma təhlükəsinin aradan qaldırılması üzrə fəaliyyət planlarının işlənməsi çox vaxt fövqəladə hal baş verdikdən sonra gerçəkləşir. Bu isə son ucda abidənin itirilməsi və ya bərpa prosesinin uzun müddət davam etməsi ilə nəticələnir. Əgər biz qlobal iqlim dəyişmələri dövründə, seysmoaktiv ərazidə yaşadığımızı, coğrafi və digər amillərin güclü təsiri, bəzən isə təzyiqi altında olduğumuzu, bölgəmizin geosiyasi amillərinin də burada rol oynadığını nəzərə alsaq, mədəni irs obyektlərinin fövqəladə hallara hazırlıq, onun təsirlərinin yumşaldılması və fəsadlarının aradan qaldırılması mərhələlərini özündə ehtiva edən, bütün riskləri gözə alan planların üzərində işə elə bu mətni oxuduğumuz andan başlamalıyıq.

Bu gün ölkəmizdə fövqəladə hallarla mübarizə aparmaq məqsədi ilə geniş infrastruktura malik dövlət qurumu - Fövqəladə Hallar Nazirliyi fəaliyyət göstərir. Mədəniyyət müəssisələri fövqəladə hallara hazırlıq, fövqəladə hal baş verdikdə görüləcək işlər və məhvedici fövqəladə halın fəsadlarının aradan qaldırılması mərhələləri üzrə plan və strategiyalarını onlarla birlikdə hazırlaya bilərlər. Bütün bunlar ölkə əhalisinin və ərazimizdə yerləşən mədəni irs obyektlərinin mühafizəsini, lazım gəldikdə planlı təxliyəsini və gələcək nəsillərə olduğu kimi qorunub saxlanılaraq ötürülməsini təmin edər. Bütün bu planların gələcəkdə fövqəladə hallarda xəbərdarlıq və onun aradan qaldırılmasının vahid sisteminə daxil edilməsi məqsədəuyğundur. Burada həmçinin muzeylərin, kitabxanaların, teatrların və digər mədəniyyət müəssisələrinin mədəni irsin saxlanılması sistemlərinin texniki təchizatının səviyyəsi də nəzərə alınmalıdır. Eyni zamanda, müasir silahlanmanın məhvedici amillərinə, həmçinin fövqəladə hal mənbələrinə əsasən belə qənaətə gəlmək olar ki, mədəni dəyərlərin mühafizəsi məsələləri kifayət qədər öź həllini tapmayıb. Belə ki mədəniyyət obyektlərinə məhvedici təsir göstərən fövqəladə hal mənbələrinin xüsusiyyətləri və xarakteri öyrənilməli; fövqəladə halların proqnozlaşdırılmasının nəzəri əsasları əsasında mümkün yanaşmalardan istifadə etməklə riyazi modellər hazırlanmalı; mədəniyyət obyektlərinə tətbiq edilə bilən, fövqəladə hallarda onların fəaliyyətinin davamlılığının yüksəldilməsinə yönəlmiş təşkilati və mühəndis-texniki tədbirlər təhlil edilməli və müəyyənləşdirilməlidir, həmçinin mədəni dəyərlərin mühafizəsi üzrə mövcud və yeni üsullar, müdafiə vasitələri araşdırılmalıdır.

Belə bir tövsiyə sənədinin hazırlanması üçün aşağıdakı məsələlər öyrənilməlidir:

- mədəniyyət obyektlərinə məhvedici təsir göstərə biləcək amilləri olan fövqəladə hal mənbələrinin yaranma, inkişaf və mümkün təsir səbəbləri, ilk növbədə onların mədəni dəyərlərin saxlanılmasına təsiri təhlil edilməlidir;
- sülh şəraitində və hərbi xarakterli fövqəladə hallarda mədəni irs obyektlərinin mühafizəsi üzrə variantların təhlili və tətbiqi;
- mədəni irs obyektlərində terror aktlarının qarşısının alınması üzrə göstərişlərin hazırlanması;
- mədəni irs obyektində fövqəladə hallara qarşı xəbərdarlıq və fəsadların ləğvi, mülki müdafiə planlarının işlənib hazırlanması;
- işçi heyətin və mədəni dəyərlərin təxliyə planının işlənib hazırlanması;
- mədəni irs obyekti işçi heyətinin fərdi müdafiəsi üçün tibbi vasitələrdən istifadə qaydaları;
- qəzalar zamanı kimyəvi təhlükəli maddələrə yoluxma zonalarının müəyyənləşdirilməsi, mədəniyyət obyektinin işçi heyətinin və ziyarətçilərin müdafiəsi üzrə qaydalar;
- civəsizləşmənin təşkili və keçirilməsi üzrə tövsiyələr;
- mədəniyyət obyektlərində radioaktiv, kimyəvi və yanğın təhlükəsi olan obyektlərdə qəzalar zamanı işçi heyətin və ziyarətçilərin mühafizəsi üçün binalarda və qurğularda xüsusi otaqların müəyyənləşdirilməsi və istifadəsi üzrə tövsiyələr.

**Fövqəladə halların təsnifatı.** Fövqəladə halların təsnifatı biliklərin özülünü təşkil edir və onun strukturunu, əsas əlamətlərini, istilah və anlayışlarını, təhlil metodologiyasını ehtiva edir.

Dünyada baş verən hadisələr, hərbi-siyasi vəziyyət, geosiyasi durum lokal hərbi münaqişələrin baş vermə ehtimallarını artırır. Müasir silahlar, onların dağıdıcı gücü, tətbiq olunan texnologiyalar risklərin qiymətləndirilməsinə daha diqqətli yanaşmanı tələb edir. Hərbi münaqişələrlə yanaşı, qlobal iqlim dəyişmələri nəticəsində təbii fəlakətlərin sayının artması, texnogen qəzaların yaratdığı təhlükələr mədəni irsin həssaslığını daha da artırır. Ətraf mühitin çirklən-

məsi sanitar və bərpaolunmaz vəziyyətlərlə müşayiət oluna bilər. Buna səbəb isə ətraf mühitə antropogen təsirin artmasıdır ki, bu təsir biosferdə, atmosferdə, hidrosferdə, quruda təsərrüfat fəaliyyəti obyektlərinin coğrafi və ekoloji amillər nəzərə alınmadan yerləşdirilməsi, insanların təbii təhlükə potensialı olan ərazilərə köçürülməsi, seysmik, vulkan, ekzogen proseslərin, hidroheliofiziki təzahürlərin müşahidəsində yol verilə bilən boşluqlar təbii fəlakətlərin dəqiq proqnozlaşdırılmasında problemlər yaradır və nəticədə sürüşmə, sel, daşqınlar və s. kimi təhlükəli fəlakətlərlə üz-üzə qalma ehtimalı artır. Əslində isə bu ehtimalların qarşısını almaq üçün xüsusi hidrotexniki qurğular inşa etmək, meşə zolaqları salmaq, inşaatda zəlzələyədavamlı layihələri tətbiq etmək və seysmik təhlükəli rayonlarda binaların möhkəmləndirilməsini, kənd təsərrüfatı əhəmiyyətli ərazilərdə doluya qarşı avadanlıq quraşdırmaq, uçqunlarla bağlı xəbərdaredici tədbirlər həyata keçirmək mümkündür. Bu yoluxucu xəstəliklər, epidemiyalar, ziyanvericilərlə mübarizə məsələlərində də əhəmiyyətlidir. Qeyd edilənlər fövqəladə hallara səbəb olan amillər kimi nəzərdən keçirilməli və planların, strategiyaların hazırlanmasında nəzərə alınmalıdır. Görülən işlər isə statistik göstəricilərlə, il ərzində təbii və texnogen mənşəli fövqəladə halların sayı, əvvəlki illərlə müqayisədə artım və ya azalma, bu hallar nəticəsində ölkəyə dəyən ziyanın miqdarı ölçülməli və bu məlumat əlçatan olmalıdır. Bu rəqəmlərdə mədəni irsə dəyən ziyan da mütləq mənada öz əksini tapmalı və bu sahədə mövcud normativlər, standartlar, qaydalar nəzərdən keçirilməlidir. Ümumilikdə isə daşınmaz mədəni irs obyektlərinin sanitar-mühafizə zolaqları dəqiq xəritələşdirilməli və texnogen təhlükə proqnozu olan istehsal müəssisələrinin layihələndirilməsində mədəni irs obyektləri nəzərə alınmalıdır.

İstehsalat və ya texnogen qəzaların baş verməsinə səbəb olan amillərdən biri də istehsalat və ekoloji mədəniyyətin paralel inkişafının dəstəklənməməsi və işçi heyətə bu vərdişlərin aşılanmamasındadır. Hərçənd bu amillər dünyada davamlı inkişafa nail olunmasının başlıca şərtlərindən hesab olunur. Sənaye müəssisələrində təhlükəli maddələrin, material və məmulatların nəqli, saxlanılması, zərərsizləşdirilməsində yol verilən nöqsanlar texnogen qəzaların səbəbləri sırasındadır. Təhlükəli amillər üzrə vəziyyətin keyfiyyətinə nəzarət sisteminin olması və dəyişikliklərlə bağlı xəbərdarlıq sisteminin vaxtında işə düşməsi vacibdir. Diaqnostika, lokallaşdırma və qəza hallarının qarşısının alınması, digər texnoloji təhlükəsizlik sistemləri, işçi heyətin qoruyucu geyim və tibbi avadanlıqla təminatı sistemləri işlək vəziyyətdə olmalıdır. Texnogen fövqəladə hallarda ən böyük təhlükəni radioaktiv və nəqliyyat qəzaları, bioloji və kimyəvi təhlükəli maddələrin ətraf mühitə atılması ilə müşayiət olunan qəzalar, partlayışlar və yanğınlar, hidrodinamik qəzalar, elektrik enerjisi sistemlərində və təmizləyici qurğularda qəzalar törədirlər.

Fövqəladə halların müəyyənləşdirilməsi təbii və texnogen xarakterli fövqəladə halların təsnifatında əsas yeri tutur. Bu isə fövqəladə hallara qarşı tədbirlərdə elmi-metodiki əsasların mühüm hissəsini təşkil edir. Fövqəladə halların mənbəyi təhlükəli təbii təzahür, qəza və ya təhlükəli texnogen hadisə, insanlar, kənd təsərrüfatı heyvanları, bitkilər arasında genis yayilan yoluxucu xəstəlik həmçinin müasir məhvədici vasitələrdir, onların təsiri nəticəsində fövqəladə hal baş verə bilər. Hər konkret hadisə zamanı fövqəladə hal operativ şəraitlə şərtləndirilir.

Fovqəladə hal rayonunda operativ şərait - bu fövqəladə hal zonasının müəyyən zaman kəsiyində səciyyəsi, onun vəziyyəti haqqında məlumatlar, onun tələb etdiyi ehtiyatlarla təmin olunması, aparılan işlər haqqında məlumat, həmçinin bu hadisəyə aidiyyəti olan müxtəlif növ xarici amillər haqqında məlumatların təhlili ilə qiymətləndirilir.

Fövqəladə hal dedikdə, tez-tez “qəza”, “fəlakət”, “təzahür” kimi istilahlardan istifadə olunur.

Qəza - texnogen səciyyəli fövqəladə hadisədir, adətən konstruksiya, istehsalat, texnoloji proses

və ya istismar zamanı baş verən hadisələr və ya təsadüfi xarici təsirlərdən yaranır, nəticədə texnoloji qurğular və ya avadanlıq nizamdan çıxır, ya da dağılır.

İstehsalat və ya nəqliyyat qəzası - insan ölümü, böyük maddi zərər və ağır nəticələrlə müşayiət olunan irimiqyaslı qəzadır.

Təhlükəli təbiət təzahürü - təbii mənşəli təbiət hadisəsidir, öz intensivliyinə, yayılma miqyasına və davamlılığına görə insanların, iqtisadiyyatın və təbii mühitin həyat fəaliyyətində mənfi fəsadlar yarada bilər.

Təbii fəlakət - fəlakətlə nəticələnən təbiət təzahürüdür (və ya prosesidir), çoxsaylı insan ölümü, böyük maddi zərər və digər ağır fəsadlarla nəticələnə bilər.

Ekoloji fəlakət - xüsusilə iri miqyaslarla ölçülən, antropogen amillər nəticəsində torpaqda, atmosferdə, hidrosferdə, biosferdə fövqəladə dəyişikliklərə səbəb ola bilər ki, bu da insanlara, onların mənəvi aləminə, yaşama mühitinə, iqtisadiyyatına və ya genofonduna mənfi təsir göstərir. Ekoloji fəlakət çox vaxt təbii mühitdə bərpa olunmayan dəyişikliklərlə müşayiət olunur.

Təhlükə fövqəladə hal mənbəyinin və təsiredici amillərin yaranması ilə fövqəladə hal zonasında əhali, ətraf təbii mühit, iqtisadiyyat obyektləri üçün yarana biləcək mənfi təsirdir. Təhlükələr yaranma mənbəyinə görə iki cür olur: təbii və antropogen. Təbii təhlükələr biosferdə baş verən fəlakətli təzahürlər zamanı yaranır. Təbii təhlükələrin səciyyəvi xüsusiyyəti onların qəfil meydana gəlməsidir, hərçənd onlardan bəzilərini, məsələn qasırğa, sunamiləri insan artıq əvvəlcədən proqnozlaşdırmağı öyrənib. Təbii təhlükələr zaman və təsir gücünə görə nisbətən sabit olur.

Antropogen təhlükələrin yaranması isə ilk növbədə insanın fəal texnogen fəaliyyəti ilə bağlıdır. İnsana təsir baxımından bütün təhlükələri: zərərli və xəsarət yetirən kimi təsnif etmək olar. Zərərli təsirlər (zərərli amillər) insanın uzunmüddətli təsir altında özünü pis hiss etməsinə və ya xəstəliyinin ağırlaşmasına gətirib çıxarır. Bunlara atmosferdə, suda, ərzaq məhsullarında, pis işıqlandırma zamanı, havanın temperaturunun yüksəlməsi və ya aşağı düşməsi zamanı, otağın havasında oksigenin miqdarı az olduqda baş verən təsirlər aiddir. Səs-küy, vibrasiyalar, elektromaqnit sahələri, ionlaşdırıcı şüalanma da insana analoji təsir göstərir.

Beləliklə, pis işıqlandırma olan otaqda iş 1,5-2 dəfə daha tez yorğunluğa səbəb olur, temperaturun yüksəlməsi şəraitində əmək məhsuldarlığı aşağı düşür, orqanizm susuzlaşır, vitamin və duzlar itir, orqanizmin müdafiə qabiliyyəti azalır, ürək, qan-damar sistemi xəstəlikləri yaranır.

Xəsarət yetirən təsir (xəsarət yetirən amillər) birdəfəlik təsir altında insanların xəsarət almasına və ya məhv olmasına gətirib çıxarır. Xəsarət yetirənlərə elektrik cərəyanı, hündürlükdən düşən əşyalar, müxtəlif qurğuların və nəqliyyat vasitələrinin hərəkət edən elementləri, yüksək təzyiqli sistemlərdə kipliyin pozulması aiddir, onlar tez-tez partlayışlara və yanğınlara səbəb olur. Xəsarət yetirən amillər qəfildən və sürətlə baş verən hallar kimi səciyyələndirilir. Dünyada hər il sənaye istehsalı sahəsində 200 minə qədər insan həyatını itirir, 110 milyondan çox insan isə müxtəlif ağırlıq dərəcəsinə malik xəsarətlər alır.

Fövqəladə hal nəticəsində maddi ziyan çəkən insana zərərçəkmiş, xəstələnmiş, xəsarət almış və ya yaralanmış insana isə xəsarət almış deyilir.

Fövqəladə hallarda təhlükəsizlik dedikdə, əhalinin, mədəni irs, iqtisadiyyat, ətraf mühit obyektlərinin təhlükələrdən müdafiə vəziyyəti başa düşülür. Təhlükəsizlik növə - sənaye, radiasiya, kimyəvi, seysmik, yanğın, bioloji, ekoloji; obyektlərə görə - əhali, mədəni irs obyekti, iqtisadiyyat, ətraf mühit obyekti; fövqəladə hal mənbəyinə görə fərqləndirilir.

Fövqəladə hallarda təhlükəsizliyin təminatı - müvafiq, sahəvi normativ-hüquqi aktlara, tələb və qaydalara riayət olunması, həmçinin əhalinin, mədəni irs, iqtisadi obyektlərin, infrastrukturun, ətraf mühitin fövqəladə hallarda təhlükələrdən qorunmasına yönəldilən kompleks təşkilati, sahəvi, iqtisadi, ekoloji mühafizə, sanitar-gigiyena, sanitar-epidemioloji tədbirlərin yerinə yetirilməsidir.

Mümkün fövqəladə halların məcmuyunu götürsək, onları ilkin olaraq münaqişəli və münaqişəsiz kimi sinifləşdirmək olar. Münaqişəli fövqəladə hallara hərbi qarşıdurmalar, iqtisadi böhranlar, ekstremist siyasi mübarizə, sosial partlayışlar, milli və dini münaqişələr, terrorçuluq, cinayətkarlığın artması, genişmiqyaslı korrupsiya və s. aid edilə bilər. Münaqişəsiz fövqəladə hallar təbiətinə və xüsusiyyətlərinə görə müxtəlif tərəflərdən nəzərdən keçirilən təzahürlərin əlamətləridir.

Fövqəladə halların yayılma miqyasına görə təsnifatında isə ərazinin ölçüləri, onun mümkün dolayı fəsadları da nəzərə alınmalıdır. Məsələn, bir-birindən əhəmiyyətli məsafədə yerləşən təşkilati, iqtisadi, sosial və digər mövcud əlaqələrin ciddi pozulması. Bu zaman fövqəladə hal kiçik sahədə baş versə belə, onun fəsadlarının bəzən daha böyük və faciəvi ola biləcəyini də diqqətə almaq vacibdir. Belə ki bu qəbildən olan fövqəladə hallar mədəni irsi, tarixi baxımdan dəyərli abidələri və digər mədəni varidatı məhv edə bilər. Ona görə də fəsadların ağırlığı və yayılma miqyasına görə təsnifatda bu vəziyyətlərdən zərər çəkmiş insanların sayı, həyat fəaliyyəti pozulmuş insanların sayı, maddi zərərin ölçüsü, fövqəladə halın zərər vuran amillərinin yayılma zonalarının sərhədləri kimi göstəricilər nəzərə alınır. Fövqəladə hallar bu əlamətlərinə görə lokal, bələdiyyə, regional, regionlararası kimi bölünür. Hər fövqəladə hadisə növünün öz yayılma sürəti var və bura fövqəladə halın intensivliyi, müddəti, xüsusiyyəti, zərər vuran amillərin qəfil təsir dərəcəsi aiddir. Bu nöqteyi-nəzərdən belə hadisələr ani (partlayış, nəqliyyat qəzaları, zəlzələlər və s.); sürətli (yanğınlar, qaz halında olan kimyəvi təhlükəli maddələrin qəzası, daşqın, güclü dalğalar, sel və s. əmələ gətirə bilən hidrodinamik qəzalar və s.); orta (radioaktiv maddələrin atılması, kommunal sistemlərdə qəzalar, vulkan püskürmələri, bolsululuq və s.) və yavaş yayılan təhlükə (təmizləyici qurğularda qəzalar, quraqlıq, epidemiyalar, ekoloji tarazlığın pozulması və s.) kimi siniflədirilir.

Arzuolunmaz və təhlükəli təbiət təzahürləri və proseslərinin təsnifatına:

- geofiziki təhlükəli təzahürlər - zəlzələlər, vulkan püskürmələri;
- geoloji təhlükəli təzahürlər (ekzogen geoloji təzahürlər) – sürüşmələr, sellər, uçqunlar, yuyulmalar, yer səthində abraziyalar, eroziya, kurum, toz burulğanları və s.;
- meteoroloji və aqrometeoroloji təhlükəli təzahürlər – qasırğalar, burulğanlar, tornado, iri dolu, güclü şaxtalar, güclü küləklər, buzlaşma, leysan, güclü qar, bərk istilər, sıx duman, quraqlıq, qırov və s.;
- dəniz hidroloji təhlükəli təzahürləri - tropik siklonlar (tayfunlar), sunami, güclü dalğalanma, dəniz səviyyəsinin güclü tərəddüdü, erkən buz təbəqəsi, buzların sıxlığı və dreyfi və s.;
- hidroloji təhlükəli təzahürlər – suyun səviyyəsinin qalxması (subasma), bolsululuq, yağış axınları, küləklə müşayiət olunan axınlar, suyun aşağı səviyyələri və s.;
- hidrogeoloji təhlükəli təzahürlər - qrunt sularının aşağı səviyyələri, qrunt sularının qalxması;
- təbii yanğınlar - meşə yanğınları, düz və taxıl sahələrində yanğınlar, torf yanğınları, yanan faydalı qazıntıların yeraltı yanğınları;
- insanların yoluxucu xəstəlikləri - ekzotik və xüsusi təhlükəli yoluxucu xəstəliklər: qrup

halında təhlükəli yoluxucu xəstəliklərə yoluxma, yoluxucu xəstəliklərin epidemioloji partlayışı, epidemiya, pandemiya, insanların aşkar olunmayan etiologiyalı xəstəliklərə yoluxma halları;
- kənd təsərrüfatı heyvanlarının yoluxucu xəstəlikləri - ekzotik və xüsusi təhlükəli yoluxucu xəstəliklərə tək-tük yoluxma halları, enzootiya, epizootiya, panzootiya, kənd təsərrüfatı heyvanlarının məlum olmayan etiologiyalı yoluxucu xəstəlikləri;
- kənd təsərrüfatı bitkilərinin xəstəliklər və zərərvericilər tərəfindən zədələnməsi - yüksələn epifitotiya, panfitotiya, kənd təsərrüfatı bitkilərinin naməlum etiologiyalı xəstəliyi, bitki ziyanvericilərinin kütləvi yayılması;
- saxlanma şəraiti pozulduqda mədəni irsə ziyan dəyməsi (xarici görkəminin sürətlə dəyişməsi, möhkəmliyinin pozulması ilə nəticələnən daxili bağların pozulması, çap məmulatlarının əsasının xarab olması.

Müxtəlif ağırlıqlı təbii fövqəladə halların təkrarlanmasının qiymətləndirilməsi bu və ya digər təbii fəlakətin yaranma riskini rayonlaşdırmağa imkan verir. Ümumilikdə təsnifata əsaslanaraq mədəni irs obyektlərində risklərin qiymətləndirilməsi və onların aradan qaldırılması üzrə planların hazırlanması vacibdir və bu planlar yeni obyektlərdə layihələndirmə prosesində, köhnə abidələrdə isə landşaft, iqlim və infrastruktura nisbətdə yerləşdiyi ərazi nəzərə alınmaqla işlənməlidir.

Qəzalar və texnogen fəlakətlərin təsnifatı xüsusilə diqqətdə saxlanılmalıdır:

- Nəqliyyat qəzaları - əmtəə qatarlarının, sərnişin yükdaşımalarının, metropoliten qatarlarının, çay və dəniz yükdaşıma və sərnişindaşıma gəmilərinin, hava limanlarında, yaşayış məntəqələrində və onlardan kənarda aviaqəzalar, iri magistral və avtomobil yollarında qəzalar, körpülərdə, dəmir yolu qovşaqlarında, tunellərdə nəqliyyat qəzaları, magistral boru kəmərlərində qəzalar;
- Yanğınlar, partlayışlar, partlayış təhlükələri – binalarda, sənaye obyektlərinin kommunikasiya və texnoloji avadanlıqlarda yanğınlar, asan alovlanan, yanacaq və partlayıcı maddələrin çıxarılması, emalı və saxlanması obyektlərində yanğınlar (partlayışlar);
- şaxtalarda, yeraltı dağ-mədən yerlərində, metropolitendə yanğınlar (partlayışlar);
- yaşayış, sosial-məişət və mədəniyyət təyinatlı bina və qurğularda yanğınlar (partlayışlar);
- kimyəvi təhlükəli obyektlərdə, radioaktiv təhlükəli obyektlərdə yanğınlar (partlayışlar), partlamamış hərbi sursatların tapılması, hərbi sursatlarda partlayıcı maddələrin sızması.
- Kimyəvi təhlükəli maddələrin atılması ilə (atılma təhlükəsi ilə) müşayiət olunan qəzalar – maddələrin istehsalı, emalı və ya saxlanılması zamanı qəzalar;
- nəqliyyatda kimyəvi təhlükəli maddələrin atılması təhlükəsi olan qəzalar, qəzada baş verən kimyəvi reaksiyalar zamanı kimyəvi təhlükəli maddələrin atılması;
- kimyəvi hərbi sursatlarla qəzalar, kimyəvi təhlükəli maddələrin mənbələrində sızmalar.
- Qəza nəticəsində radioaktiv maddələrin atılması – atom elektrik stansiyalarında, istehsalat və tədqiqat təyinatlı qurğularda, nüvə-yanacaq dövri müəssisələrində, nüvə qurğuları olan nəqliyyat vasitələrində və kosmik aparatlarda və ya radioaktiv maddə yüklü nəqliyyatda radioaktiv maddələrin atılması ilə (təhlükəsi ilə) müşayiət olunan qəzalar;
- Nüvə silahları saxlancları, istismar və ya qurğularında qəzalar, radioaktiv mənbələrdə sızmalar.
- Bioloji təhlükəli maddələrin atılması (atılma ehtimalı) təhlükəsi olan qəzalar – müəssisələrdə, elmi-tədqiqat təşkilatlarında (laboratoriyalarda), nəqliyyatda bioloji təhlükəli maddələrin atılması (atılma təhlükəsi) ilə müşayiət olunan qəzalar.

- Binaların, qurğuların qəfil uçulması – nəqliyyat kommunikasiyaları elementlərinin, istehsalat bina və qurğularının, yaşayış, sosial-məişət və mədəni irs təyinatlı bina və qurğuların, mədəniyyət sahəsinə aid binaların uçulması.
- Elektroenergetika, kommunikasiya sistemlərində qəzalar – elektrik avadanlıqları sistemlərində, kanalizasiya, istilik şəbəkələrində, içməli su xətlərində qəzalar;
- Mədəni irs obyektlərində qəzalar – muzey dəyərlərinin, kitabxana fondlarının, tarixi abidələrin dağılması, korlanması, məhv olması ilə müşayiət olunan qəzalar.

Ümumilikdə qəzalar, partlayışlar, təhlükəli kimyəvi, radioaktiv maddələrin havaya, torpağa, su mühitinə düşməsi, yanğınlar, qəlpələrin ətrafa yayılması ətraf mühitlə yanaşı, ərazidə yerləşən abidələrə təsir göstərir. Səs-küy, kimyəvi maddələrlə çirklənmə, vibrasiya, geodinamik hərəkətin, qısa və uzun dalğaların göstərdiyi təsiri və bir çox fiziki, mexaniki, kimyəvi təsirlər onun tamlığını itirməsinə, zədələnməsinə, hətta məhvinə səbəb ola bilir. Burada abidənin hazırlandığı materialın davamlılığı da mütləq mənada nəzərə alınmalı və risklərin qiymətləndirilməsi zamanı bir amil kimi nəzərdən keçirilməlidir. Qeyd edilənlər plan və strategiyaların hazırlanmasında müxtəlif sahələri təmsil edən mütəxəssislərin birlikdə çalışmalarının nə dərəcədə əhəmiyyətli olduğunu bir daha sübut edir.

**Fövqəladə hallar zamanı mədəni irsin əhəmiyyəti.** Mədəni irs fövqəladə vəziyyətlərdə mühüm rol oynayır. O, insanların milli kimlik, davamlılıq hissini təmin edir, bərpa prosesinə yardımçı olur. Lakin mədəni irs özü də bu vəziyyətlərdə dağılma riskinə məruz qalır. Fövqəladə hallar zamanı mədəni irsin mühafizəsi UNESCO və ICOMOS kimi bir sıra beynəlxalq təşkilatların qarşısında duran mühüm məsələdir.

Gəlin, əvvəlcə mədəni irsin fövqəladə vəziyyətlərdə rolunu nəzərdən keçirək. Belə ki, mədəni irs özlüyündə ikili səciyyə daşıyır, o icmanı ruhlandırmaqla, onu fövqəladə hadisələr zamanı səfərbər etməklə yanaşı, həm də həssas element kimi özü də riskə məruz qala bilir.

Abidələr, muzeylər, adət və ənənələrin daxil olduğu mədəni irs insanlara keçmişlə bağları qoruyub saxlamaqda və dəyərlərə sahib çıxmaq hissini möhkəmləndirməkdə kömək edir. Bu isə böhran və dəyişikliklər dövründə xüsusilə böyük əhəmiyyət kəsb edir.

Mədəni irs sosial-iqtisadi rifahın mənbəyi, həmçinin fövqəladə hallardan sonra bərpa zamanı, xüsusilə turizm və təhsil sahəsində resurs kimi istifadə oluna bilər.

Mədəni obyektlər adətən icma və millətlərin, etnik qrupların rəmzləri hesab olunurlar, onların qorunub saxlanılması isə böhran dövründə mənəvi ruhun və həmrəyliyin möhkəmləndirilməsinə xidmət edə bilər.

**Fövqəladə hallar zamanı beynəlxalq əməkdaşlıq.** UNESCO və digər təşkilatlar fövqəladə hadisələr zamanı mədəni irsin müdafiəsində səylərin əlaqələndirilməsi üzrə aktiv fəaliyyət göstərir, tövsiyələr işləyib hazırlayır və dəstəkləyirlər.

1990-cı illərin ortalarından-2000-ci illərin əvvəllərindən başlayaraq təbii və antropogen səciyyəli fəlakətlərin sayının artması və tez-tez rast gəlinməsi UNESCO-nun və digər beynəlxalq təşkilatların mədəni irs obyektlərinin etibarlı müdafiəsi istiqamətində həllərin tapılması sahəsində fəaliyyətini aktivləşdirib. UNESCO mədəni irsin mühafizəsi sahəsində beynəlxalq əməkdaşlığın vacibliyini etiraf etməklə irsin xüsusilə fövqəladə hallarda idarə olunması məsuliyyətini üzərində daşıyan mütəxəssislər arasında məlumat və təcrübə mübadiləsi üzrə beynəlxalq mexanizmin yaradılmasının labüd olduğunu hesab edir. Bu çərçivədə konfransların, seminarların, beynəlxalq və regional səviyyələrdə müştərək praktikumların keçirilməsi nəzərdə tutulur. 1997-ci ildə Yaponiyanın Kobe şəhərində keçirilmiş “Mədəni irsə təhlükə törədən risk-

lərə hazırlıq" beynəlxalq simpoziumunda eyniadlı Kobe/Tokio Deklorasiyası qəbul olunub. Bu sənəd irsin fəlakətlərdən müdafiəsi sahəsində beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsinin müəyyən mərhələsi olub (ICCROM, 1997).

UNESCO və digər beynəlxalq təşkilatlar normativlər yaradan təşkilatlar kimi fəaliyyətlərini məhdudlaşdırmır, eyni zamanda müharibə və sülh şəraitində fövqəladə hallarda mədəni irs obyektlərinin müdafiəsinin müxtəlif məqamlarını müzakirə edən beynəlxalq forumlar təşkil edirlər (UNESCO, 1983). Planetin bütün qitələrində məşhur mədəni irs abidələrinin – kitabların, tarixi və elmi əhəmiyyət daşıyan abidələrin, incəsənət əsərlərinin xilası və qorunub saxlanılması məqsədi ilə beynəlxalq aksiyaların təşkili və keçirilməsi – əsas missiyası bəşəriyyətin mədəni irsinin qorunub saxlanılması və mühafizəsi olan təşkilatın beynəlxalq fəaliyyətinin daha bir tərəfidir. İrs obyektlərinin müdafiəsi üçün müxtəlif olkələrdən ekspertlər cəlb olunur. Onlar milli abidələrin mühafizəsi xidmətləri ilə birlikdə obyektlərin, o cümlədən müxtəlif fəlakətlər nəticəsində zərər çəkən irs nümunələrinin vəziyyətlərini öyrənirlər. Ekspertlər obyektlərin xilası, bərpası və ya konservasiyası üzrə konkret təkliflər verirlər. UNESCO tərəfindən təşkil edilmiş bu qəbildən olan ilk aksiya 1950-ci ildə dağıdıcı zəlzələdən sonra Peruya ekspertlərin göndərilməsi idi. Xatırladaq ki, bu zəlzələ nəticəsində Kusko tarixi şəhərinə və onun abidələrinə ciddi zərər dəymişdi (Богуславский, 1979: 151).

1954-cü ildə qəbul olunmuş Haaqa Konvensiyasının İkinci Protokolunun 33-cü maddəsinə əsasən, dövlətlər UNESCO-ya ərazilərində olan mədəni dəyərlərin təşkilati və ya texniki müdafiəsində, xüsusilə tək hərbi xarakterli deyil, fövqəladə hallar zamanı obyektlərin xilası üzrə tədbirlərin və hazırlıq tədbirlərinin həyata keçirilməsində yardım göstərilməsi barədə xahişlə müraciət edə bilərlər (UNESCO, 2003).

Hərçənd Birinci və İkinci Qarabağ müharibəsi zamanı və Vətən müharibəsindən sonra üzv-dövlət kimi Azərbaycanın UNESCO-ya missiya göndərilməsi ilə bağlı müraciətlərinin heç birinə reaksiya verilmədi və bu da həmin təşkilatın son dövrlər daha çox öz missiyasını yerinə yetirən təşkilat deyil, siyasiləşmiş qurum olduğunu göstərir.

Müxtəlif mənşəli fəlakətlər nəticəsində yaranan və mədəni irsə böyük zərbə vuran, hətta onun məhvi ilə nəticələnən fövqəladə hallar UNESCO-nun mədəni irsdə risklərin idarə olunması üzrə Proqramının yaranmasını zəruri etdi. Proqram çərçivəsində bütün maraqlı tərəflər üçün fəlakətə hazırlıq, fəlakət zamanı fəaliyyət planı və ondan sonra görüləcək işlərlə bağlı müxtəlif problemlərə həsr olunan təlim məqsədli seminarlar, kurslar, praktikumlar təşkil olunur. 2006-cı ildən başlayaraq hər il keçirilən "Mədəni irsin müdafiəsi üçün təbii fəlakət risklərinin idarə olunması" beynəlxalq təlim kurslarını nümunə kimi göstərmək olar. Kursların məqsədi – risklərin idarə olunması sahəsində mütəxəssislərin hazırlanması, inteqrasiya olunmuş idarəetmə və fəlakətlərə hazırlıq sistemlərinin yaradılması, planların işlənməsi və risklərin idarə olunması üzrə beynəlxalq şəbəkənin yaradılmasıdır.

1992-ci ildə "Dünya yaddaşı" proqramı yaradılmışdır, onun məqsədi beynəlxalq və milli əhəmiyyət daşıyan ümumdünya sənədli irsini müdafiə və mühafizə etməkdir. Proqram çərçivəsində sənədli irsin reyestri aparılır, rəqəmsal nüsxələr hazırlanır, abidələr haqqında kataloqlar, kompakt-disklər, nəşrlər çap olunur.

Fövqəladə hallar zamanı mədəni dəyərlərin mühafizəsi UNESCO çətiri altında təsis olunmuş, mədəni irsin mühafizəsi sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatların qarşılarına qoyduqları mühüm vəzifələrdən biridir.

1946-cı ildə təsis olunmuş Beynəlxalq Muzeylər Şurası (ICOM) beynəlxalq qeyri-hökumət

təşkilatıdır, o, dünya muzey icmasına fövqəladə hallarda muzey dəyərlərinin mühafizəsi və qorunub saxlanılması kimi aktual problemlərin həllində kömək etməklə məşğuldur (Menegazzi, 2008). 1974-cü ildə ICOM-un Muzey Təhlükəsizliyi üzrə Beynəlxalq Komitəsi (ICMS) təsis olunub. O, müzeylərin - fond və heyətin təhlükəsizliyi ilə bağlı fəaliyyət proqramları işləyib hazırlayır. Komitə təhlükəsizliyin təminatında mühüm tərkib hissəsi olan muzeyin işçi heyətinin fövqəladə hallara hazırlığında iştirak edir. Onun funksiyalarına muzeylərin böhran vəziyyətlərində fəaliyyətlər haqqında məlumatlandırılması da daxildir, bunun üçün çap və elektron formatda materiallardan – soraqçalardan, rəhbər göstərişlərdən və s. sənədlərdən istifadə olunur. Onların arasında Almaniya, İtaliya, Çexiya, Niderland və İsraildən olan ekspertlərin tövsiyələri yer almış "Fövqəladə hallarda fəaliyyətlər üzrə vəsait" kitabı da var. Burada mütəxəssislər ekstremal hallarda risklərin qiymətləndirilməsi və azaldılması üsulları, fövqəladə planların hazırlanması və onların savadlı tətbiqi üzrə tövsiyələr vermişlər. Vəsaiti tərtib edənlərin fikrincə, bu qəbildən olan məlumat istənilən muzeyə, kiçik və hələ müasir təhlükəsizlik sistemlərinə malik olmayan muzeylər üçün xüsusilə faydalıdır.

ICOM uzunmüddətli "Muzeylərin fövqəladə vəziyyətlərə hazırlığı" Proqramının (Museum's Emergency Programme – MEP) təşəbbüskarıdır. Proqram peşəkar məsləhət və yardıma ehtiyacı olan bütün muzey mütəxəssisləri üçün nəzərdə tutulub (Roberts & Hutchins, 2009).

Proqram altı moduldan ibarətdir:

1. Muzeylərin və onların işçi heyətinin informasiya təminatında ehtiyaclarını müəyyənləşdirmək üçün beynəlxalq tədqiqatların aparılması.

2. Daşınar mədəni irs obyektləri sahəsində fövqəladə hallara hazırlıq və bu vəziyyətdə fəaliyyət mövzularında beynəlxalq konfransların keçirilməsi.

3. Fövqəladə hallarda mədəni dəyərlərin mühafizəsi məsələləri üzrə soraqça materiallarının, rəhbər göstərişlərin və vəsaitlərin işlənib hazırlanması, tərcüməsi və yayımı.

4. Fövqəladə vəziyyətlərə hazırlıq və bu hal baş verdikdə fəaliyyət üzrə regional təlim məqsədli seminarların keçirilməsi.

5. Fövqəladə hallara hazırlıq və bu hal baş verdikdə fəaliyyət üzrə regional ixtisaslaşmış qrupların yaradılması.

6. Vəsaitlərin toplanması üzrə maarifləndirici səciyyəli aksiya və tədbirlərin təşkili və keçirilməsi.

Proqram çərçivəsində hazırlanmış nəşrlərdən biri - "Muzeylər üçün fövqəladə hallara hazırlığın təmin olunması üzrə rəhbər göstəriş"dir. Burada muzeyin işçi heyətinə fövqəladə hallar zamanı fəaliyyətdə prioritetlərin sıralanması aydın şəkildə addım-addım izah olunub, istənilən halda birinci növbədə ziyarətçilərin və heyətin müdafiəsinin əsas məsələ olduğu vurğulanıb (Escobar, 2004; Jokilehto, 2000). Təəssüf ki, bir çox muzeylər hələ də yerinə yetirilə bilən fövqəladə hallarda fəaliyyət planına malik deyillər.

Mavi Qalxan Beynəlxalq Komitəsi (International Committee of the Blue Shield (ICBS) 1996-cı ildə yaradılıb, özlüyündə ICOM, ICOMOS, Beynəlxalq Arxivlər Şurası və Kitabxanalar Assosiasiyalarının Beynəlxalq Federasiyası kimi beynəlxalq qeyri-hökumət təşkilatları arasında mədəni irs obyektlərini müxtəlif növ fəlakətlərdən qoruyan zəncirin bir halqasını təşkil edir. Təşkilatın məqsədi – fors-major hallarda hökumətlərə və təşkilatlara ekspert xidmətləri göstərmək və hadisənin bütün vəziyyətlərinə aid məlumatla təmin etmək, fövqəladə hallara hazırlıqdaköməklik etmək, milli və regional səviyyələrdə ekspertlər hazırlamaqdır (Blue Shield, 1999).

Abidələrin və Görməli Yerlərin Mühafizəsi üzrə Beynəlxalq Şura (ICOMOS) Mavi Qalxanın təsisçilərindən biridir. ICOMOS 1965-ci ildə Venesiya xartiyası qəbul olunduqdan sonra yaradılıb, öz fəaliyyətini memarlıq və arxeoloji irsin saxlanılması sahəsində nəzəriyyə, metodologiya, elmi texnologiyaların təşviqinə istiqamətləndirir. Təşkilatın qarşısına qoyduğu məsələlərdən biri fövqəladə hal nəticəsində dağılma təhlükəsi olan mədəni irs obyektlərinin mühafizəsidir.

ICOMOS-un fövqəladə hallar zamanı mədəni irsin mühafizəsi haqqında bir çox sənədlərinin müddəaları təşkilatın müasir inkişaf təhlükələri şəraitində tarixi-mədəni əhəmiyyətə malik abidələrin saxlanılmasının mürəkkəb problemlərinin həllində maraqlı olduğunu əks etdirir. ICOMOS-un strukturunda Risklərə Hazırlıq üzrə Beynəlxalq Komitə (International Committee on Risk Preparedness) mövcuddur, onun işində irsin mühafizəsinin müxtəlif məqamları üzrə (risklərin azaldılması, fəlakətlər zamanı fəaliyyət, fəlakətdən sonra fəsadların aradan qaldırılması) ekspertizanı həyata keçirən, irsin saxlanılması sahəsində yüksək ixtisaslı mütəxəssislər iştirak edirlər.

Kitabxana Assosiasiyalarının Beynəlxalq Federasiyası (IFLA) qocaman qeyri-hökumət təşkilatıdır, onun qarşısına qoyduğu mühüm vəzifələrdən biri də kitabxana fondlarının dağıdıcı təbii, texnogen, antropogen amilli fəlakətlərdən qorunmasıdır. 1984-cü ildə IFLA tərəfindən “Mühafizə və konservasiya” Proqramı (PAC) qəbul olunub. Proqram kitabxana fondlarının saxlanılması və istifadəsi qaydalarının işlənib hazırlanmasına istiqamətlənib. Proqramda hərbi münaqişələr və təbii fəlakətlər zamanı mədəni dəyərlərin mühafizəsi prinsipləri işlənib hazırlanıb.

Beynəlxalq qeyri-hökumət təşkilatı olan Mədəni İrsin Saxlanılması və Bərpası üzrə Beynəlxalq Tədqiqat Mərkəzi (ICCROM) 1956-cı ildə yarandığı vaxtdan irsin saxlanılması sahəsində təşkilatlara ekspert dəstəyinin göstərilməsi və bərpa texnologiyaları üzrə təlim əsaslı tədbirlərin keçirilməsi kimi ilkin vəzifələri ilə yanaşı, fövqəladə hallarda mədəni dəyərlərin saxlanılmasında yardım kimi məsələləri də vəzifə öhdəliyi kimi qəbul edib. Fövqəladə hallarda irsin mühafizəsi sahəsində əməkdaşların hazırlanması məsələsi bu gün də öz aktuallığını saxlamaqdadır. ICCROM risklərə hazırlıq problemlərini təşkilatın ekspertləri tərəfindən işlənmiş beynəlxalq tədris proqramlarına, risklərin idarəetməsi üzrə kurslara daxil edir və bu proqramlar 2000-ci ildən başlayaraq hər il müxtəlif dünya ölkələrində həyata keçirilir.

Zaman keçdikcə, istənilən ölkə mədəni irs obyektlərinin dağılması problemləri ilə qarşılaşır, bu hal ya qəsdən dağıdılma (hərbi münaqişələr, terror, vandalizm, soyğunçuluq) və ya təsadüfi amillər (qəzalar, təbii fəlakətlər, texnogen fəlakətlər) nəticəsində baş verir. Bu risk amillərindən bəziləri qaçılmazdır, lakin onların hər hansı biri ilə qarşılaşmaya hazırlıq mədəni dəyərləri qoruyan mədəniyyət müəssisələrinin və irsin mühafizəsi üzrə inzibati orqanların fəaliyyətində mütləq şərt olmalıdır. Mədəni irs obyektlərinin mühafizəsinin bütün məqamlarını nəzərə alan fövqəladə hal perspektivlərinin təhlili və planlaşdırılması, böhranlı vəziyyət başlayanda fəaliyyət və onun fəsadlarının aradan qaldırılması – bütün bunlar fəlakət risklərinin idarəetmə sistemidir və o mədəni dəyərlərin qorunub saxlanılmasına məsul şəxslərin adekvat hazırlığını mütləq şəkildə nəzərə almalıdır. Bütün bu məqamlar mədəni irs obyektlərinin istənilən mənşəli fəlakətlərdən etibarlı müdafiəsinin əsasını təşkil edir. Mədəni irsin qorunub saxlanılması sahəsində beynəlxalq hökumət və qeyri-hökumət təşkilatlarının ekstremal hadisələr şəraitində möhkəm hüquqi əsasa söykənən fəaliyyəti mədəni irsin saxlanılması məsələlərinin həllində optimal şərtlərin təmin olunmasına istiqamətlənib. Fövqəladə hallara hazırlıq və bu halda fəaliyyət üzrə nümunəvi layihələrin yaradılması, təlim əsaslı proqramların işlənməsi, irsin mühafizəsi sahəsində mütəxəssislər arasında və abidələrin xilası tədbirlərində iştirak edən

digər mütəxəssislər arasında təcrübə mübadiləsinə dəstək göstərilməsi, müvafiq mövzularda yardımçı rəhbər göstərişlərin, soraqçaların nəşri beynəlxalq ictimaiyyətin səylərinin birləşdirilməsinə, fövqəladə hal baş verməzdən əvvəl mədəni irsin məhvi risklərini azalda bilən tədbirlərə kömək göstərəcək, ya da mədəni irs obyektləri ilə işləyən mütəxəssislərin potensialının yüksəldilməsini dəstəkləyəcək. Beynəlxalq təşkilatlar tərəfindən ölkələrə və ayrı-ayrı mədəniyyət müəssisələrinə fövqəladə hadisə baş verdikdə onların öz proqramları çərçivəsində edilən təşkilati, texniki, konsultativ, maliyyə yardımları ümumbəşəri dəyər kimi mədəni irsin qorunub saxlanılması və mühafizəsində beynəlxalq ictimaiyyətin qlobal məsuliyyətinə bir sübutdur.

Hər ölkə özünə məxsus milli mədəni irsin mühafizəsinin effektiv modelini, deməli həm də fövqəladə hadisələrdə irs obyektlərinin mühafizəsi sistemini qurmağa çalışır. Fəlakətlərə hazırlıq və onların təzahürləri özlərini göstərdikdə vaxtında hərəkətə keçmək – istənilən icmanın prioritet məsələsi olmalıdır, mədəni irsin saxlanılması, itkilərin azaldılması, zədələnmiş abidələrin bərpası şərtlərinin optimallaşdırılması isə onların həllindən asılıdır. Xarici mütəxəssislərin fikrincə, "hazırlıq" anlayışı irs obyektlərinin fəlakətlər nəticəsində zədələnmələrdən və ya məhvindən mühafizəsi problemlərinə yanaşmada həlledici rola malikdir. ""Fəlakət" anlayışı nə isə ağır məna daşıyır, əslində isə daha çox ona hazırlıq səviyyəsi ilə bağlıdır" (Гардинер, 1997: 40). XX əsrin ikinci yarısında – XXI əsrin ilk onilliyində bir sıra Avropa ölkələrində, ABŞ-də, Çində, Avstraliyada mədəni irs obyektlərinin müxtəlif mənşəli fəlakətlərdən mühafizəsi sahəsində toplanmış təcrübə böyük maraq doğurur. Müxtəlif inkişaf tarixi, tarix və mədəniyyət abidələrinin qorunması üzrə hüquqi normaları, mədəni irsin qorunması sahəsində ənənələri, həmçinin təhlükələrin xüsusiyyətlərini müəyyənləşdirən coğrafi şəraitləri ilə fərqlənən ölkələrdə ekstremal vəziyyətlərdə irsin mühafizəsinin təşkili özünəməxsus səciyyələri ilə seçilsə də fövqəladə halların idarə olunmasının əsas mərhələlərində - fəlakətə hazırlıq, fəlakətlə mübarizə və fəlakətdən sonra bərpada ümumi xüsusiyyətlərə malikdirlər. Bütün bu mərhələlər fövqəladə vəziyyət şəraitində fəaliyyət planlarının işlənməsində bu və ya digər dərəcədə nəzərə alınır, bura normativ, inzibati, texniki mühafizə tədbirlərinin tam spektri daxil edilir. Mühafizə sistemi ilk növbədə ölkənin mədəni irs obyektlərinə təhlükə yaradan xarici və daxili təhlükələrin tam aydınlaşdırılmasına, irsin saxlanılmasına görə məsuliyyət daşıyan mədəniyyət müəssisələrinin və şəxslərin adekvat hazırlığına, mədəniyyət müəssisələrinin milli, fövqəladə hallarda mədəni irsin mühafizəsində səmərəli qaydanın yaradılmasında iştirakı məqsədi ilə fövqəladə hallar xidmətləri ilə sıx əməkdaşlığına hökumətin və cəmiyyətin bu sahədə mövcud milli və yerli qanunvericiliyin bütün normalarına riayət olunmasına əsaslanır.

Fövqəladə vəziyyətlərdə fəaliyyət planlarının işlənib hazırlanması:

Fövqəladə hallarda mədəni irsin mühafizəsi, qorunub saxlanılması və bərpası üzrə tədbirləri ehtiva edən planlar işlənib hazırlanmalıdır.

UNESCO ilə 2003-cü ildə qəbul edilmiş Qeyri-Maddi Mədəni İrsin Mühafizəsi Konvensiyasının "Fövqəladə hallarda qeyri-maddi mədəni irsin mühafizə üsulları və operativ prinsipləri" sənədi bu baxımdan düzgün planlaşdırma üçün istiqamətverici bir sənəd kimi dəyərləndirilə bilər.

Mədəni irs bütün dünyada fövqəladə halların, o cümlədən münaqişə və təhlükəli təbii təzahürlər və antropogen təsirlər ("təbii fəlakətlər") nəticəsində yaranan fəlakətlərin təsirlərinə daha çox məruz qalmaqdadır. Bu hallara icmaların, qrupların və ayrı-ayrı şəxslərin (bundan sonra "icmalar") milli kimliyinin və rifahının əsasını təşkil edən qeyri-maddi mədəni irsin saxlanılması və ötürülməsini təhlükə altında qoyan vəziyyətlər aiddir. Fövqəladə hallar baş verdikdə qey-

ri-maddi mədəni irsin mühafizəsində ikili funksiyanın yerinə yetirilməsi təmin olunmalıdır: bir tərəfdən fövqəladə hadisə nəticəsində bilavasitə təhlükəyə məruz qalan qeyri-maddi mədəni irs, digər tərəfdən isə qeyri-maddi mədəni irsin icmaların fövqəladə hadisələrə hazırlığı, onların aradan qaldırılmasında fəaliyyəti və fəsadlardan sonra bərpa zamanı icmaların dəstəklənməsində səmərəli alət ola bilər.

Hərbi münaqişələr və təbii fəlakətlərin müxtəlif səciyyə daşıdığını və miqyasını, həmçinin maraqlı tərəflərin dairəsinin fərqliliyini nəzərə alsaq, fövqəladə hallar özlüyündə mürəkkəb fəaliyyət sahəsidir. Qeyd edəcəyimiz operativ prinsip və üsullar, iştirakçı dövlətlərə və digər müvafiq maraqlı tərəflərə milli və beynəlxalq səviyyədə müxətlif növ fövqəladə hallarda qeyri-maddi mədəni irsin ən səmərəli istifadəsini və mühafizəsini təmin etməyə dair rəhbər göstərişlərdir.

Aşağıda qeyd edilən operativ prinsip və üsullar UNESCO-nun hərbi münaqişə vəziyyətində mədəni plüralizmin təşviqi və mədəniyyətin müdafiəsi üzrə fəaliyyətinin möhkəmləndirilməsi Strategiyasının müddəaları (UNESCO, 2015) və təbii fəlakət və antropogen qəzaların doğurduğu fövqəladə hadisələrə aid Əlavələri (UNESCO, 2017), həmçinin Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının 2347-ci Qətnaməsinin (2017-ci il) müddəaları ilə razılaşdırılıb. Bundan başqa, onları 2003-cü ildə qəbul olunmuş Qeyri-maddi mədəni irsin mühafizəsi haqqında Konvensiyanın müvafiq müddəaları, xüsusilə qeyri-maddi mədəni irsin mühafizəsi və milli səviyyədə davamlı inkişafı məsələlərinə həsr olunan VI bölmənin (UNESCO, 2018) və onun Operativ Rəhbər Göstərişi, habelə qeyri-maddi mədəni irsin qorunmasının Etik Prinsiplərinin müddəaları ilə birlikdə kompleks şəklində nəzərdən keçirmək lazımdır.

**Fövqəladə hallarda qeyri-maddi mədəni irsin mühafizəsinin prinsipləri.** Fövqəladə hallarda qeyri-maddi mədəni irsin mühafizəsinə və (və ya) istidadəsinə yönələn bütün tədbirlərin əsasında aşağıdakı prinsiplər dayanmalıdır:

1. Qeyri-maddi mədəni irs müstəsna olaraq onun istifadəsi və müvafiq icmaya ötürülməsi şərti daxilində mövcud olduğundan onun sosial, mədəni, iqtisadi həyatından ayrılıqda baxıla bilməz. Beləliklə, bu irsin mühafizəsi, onun daşıyıcılarının həyatının və rifahının müdafiəsi ilə ayrılmaz surətdə bağlıdır.

2. Qeyri-maddi mədəni irsi fövqəladə hallar nəticəsində zərəŕ çəkə bilən icmalara təbii fəlakət və ya hərbi münaqişə zonasında olan şəxslər, yerdəyişməyə məruz qalmış insanlar və onları qəbul edən icmalar, həmçinin qeyri-maddi mədəni irslə bağlı olan digər şəxslər və qruplar aiddirlər.

3. Fövqəladə vəziyyətin bütün mərhələlərində icmaya onun qeyri-maddi mədəni irsinə aid olanları müəyyənləşdirməkdə başlıca rol verilir. Bu, icmanın qeyri-maddi mədəni irsin fövqəladə hal nəticəsində necə zərər çəkə biləcəyini və onun qorunub saxlanılması üçün hansı tədbirlərin görülməsinin müəyyənləşdirməsini, həmçinin bu icmanın öz irsini davamlılığını yüksəltmək, özünün bərpasına, həm öz daxilində, həm də digər icmalarla münasibətdə sülh içində birgə yaşayış və etibarın dirçəldilməsində bir mənbə kimi necə istifadə edə biləcəyini müəyyənləşdirməkdə kömək edər.

4. Konvensiyanın 11-ci maddəsinin müddəalarına əsasən iştirakçı-dövlətlər ərazilərində olan qeyri-maddi mədəni irsin qorunmasının təmin edilməsində lazımi tədbirləri həyata keçirirlər. Bu müddəa istənilən şəraitdə, həm fövqəladə vəziyyət nəticəsində qeyri-maddi mədəni irs təsirə məruz qaldıqda, həm də sülh şəraitində tətbiq olunur. Bu zaman iştirakçı-dövlətlər icmaların, o cümlədən qaçqınların, daxildə yerdəyişmə edən şəxslərin və ərazilərində olan

köçkünlərin, miqrantların müvafiq mühafizə tədbirlərində daha geniş iştirakını təmin etməyə səy göstərirlər.

5. Milli və beynəlxalq səviyyədə fövqəladə vəziyyətin fəsadlarının aradan qaldırılmasında və proqnozlaşdırılmasında maraqlı tərəflər, o cümlədən fəlakətlərə hazırlığı təmin etmə üzrə və fəlakət baş verdikdə yardım göstərilməsi üzrə mütəxəssislər, humanitar təşkilatlar, qeyri-hökumət təşkilarları və silahlı qüvvələr zərər çəkmiş qeyri-maddi mədəni irsin mühafizəsində və müvafiq icmaların fövqəladə hallara hazırlığının təmin olunmasında və onlara qarşı mübarizə tədbirlərində bu irsdən istifadəsinin dəstəklənməsində mühüm rol oynayırlar.

6. Qeyri-maddi mədəni irs dinamik və uyğunlaşma xüsusiyyətinə malikdir və icma ətraf mühitin və tarixinin, o cümlədən fövqəladə vəziyyətlərin təsiri ilə fasiləsiz olaraq yenilənir. Vəziyyətdən asılı olmayaraq qeyri-maddi mədəni irsin mühafizəsinə və ya istifadəsinə yönələn səylərdə bu dinamik və uyğunlaşma xüsusiyyətini nəzərə alınmalı və ona hörmətlə yanaşılmalıdır.

Aşağıda təqdim olunan üsullar öz aralarında yuxarıda qeyd edilmiş prinsipləri birləşdirir, fövqəladə hal ehtimalları və onların fəsadlarının qarşısının alınmasına yönələn dövrün üç əsas mərhələsi– hazırlığın, fövqəladə hal zamanı fəaliyyətin və bərpa proseslərinin təmin olunması ilə bağlı tədbirləri müəyyənləşdirir. Bu zaman mərhələlərin bir-biri ilə üst-üstə düşməsi və müxtəlif müddəti əhatə etməsini də etiraf edir. Qeyri-maddi mədəni irsin bu və ya digər elementi və ya onunla bağlı vəziyyət nöqteyi-nəzərindən ən uyğun və əlçatan tədbirlər yerli xüsusiyyətlər və şəraitlər nəzərə alınmaqla təyin olunur.

Hazırlığın təmin olunması:

1. Fövqəladə hallarda qeyri-maddi mədəni irsin, həmçinin bu prinsip və üsulların ikili səciyyə daşıması haqqında müvafiq maraqlı tərəflərin məlumatlılıq səviyyəsinin artırılması və potensialının möhkəmləndirilməsi.

2. İcmaların bu və ya digər fövqəladə hallarda riskin azaldılmasına yönələn bütün vasitələrindən istifadə imkanını əldə etməsi, ehtiyat və dəstəklə təmin olunması, xüsusilə fövqəladə halların yaranma ehtimalı olan region və ölkələrdə maraqlı tərəflərlə razılaşdırılmaqla lazımi tədbirlərin həyata keçirilməsinə hazırlığın təmin edilməsi.

3. Potensial fövqəladə hallara həssas elementlərin 2003-cü ildə qəbul olunmuş Konvensiyanın müddəalarına uyğun olaraq qeyri-maddi mədəni irs siyahılarına daxil edilməsi. Bura fövqəladə halların fəsadlarını yumşalda bilən elementlərin imkanları haqqında məlumat, həmçinin müvafiq yerlər və icmalar haqqında təfsilatlı informasiyalar daxil edilməlidir ki, bu da fövqəladə hallarla mübarizə zamanı tədbirlər həyata keçirərkən onların əlçatan olmasına və asanlıqla aşkar edilməsinə imkan verər.

4. Bu və ya digər elementin mühafizəsi ilə bağlı planların tərtib edilməsi, fövqəladə hallara hazırlığın təmin olunması üzrə tədbirlərin işlənməsi. Bu bənddə fövqəladə hal yarandığı halda bu elementlərin potensial həssaslığının aradan qaldırılması üzrə preventiv tədbirlər, onların potensialının möhkəmləndirilməsi və fəallaşdırılması üzrə hazırlıq tədbirləri, bu hadisənin fəsadlarının yumşaldılması üçün lazım olan tədbirlər, həmçinin fövqəladə halda fəaliyyətlə bağlı tədbirlərin görülməsi mərhələsində müvafiq elementin hərəkətə gəlməsi üzrə vəziyyətin qiymətləndirilməsi metodologiyası ola bilər.

5. Qeyri-maddi mədəni irsə aid məsələlərin yerli, milli, subregional və regional səviyyələrdə fövqəladə hallara hazırlığın təmin olunması və riskin azaldılmasına yönəlmiş tədbirlərə daxil edilməsi.

6. Qeyri-maddi mədəni irsin mühafizəsinə cəlb olunmuş və fövqəladə hallara hazırlığın təmin olunmasına cavabdeh orqanlar arasında əlaqənin qurulması.

Fövqəladə hal zamanı fəaliyyət:

1. Fövqəladə halın təsiri nəticəsində qeyri-maddi mədəni irsi zərər çəkən və ya zərər çəkməsi ehtimal edilən icmaların mümkün qədər sürətlə müəyyənləşdirilməsi, lokallaşdırılması, onlarla əlaqə qurulması.

2. Cəlb olunmuş icmalara ehtiyatların çatdırılması və onların potensialının aşkar olunması və mühafizə sahəsində yerli xüsusiyyətlər nəzərə alınmaqla işlənmiş yanaşma əsasında mühüm tələbatlarının ödənilməsi, həmçinin onların qeyri-maddi mədəni irsindən fövqəladə halın birbaşa fəsadlarının yumşaldılması məqsədi ilə istifadəsi (tələbatların yerlərdə müəyyənləşdirilməsi) üzrə prioritetlərin müəyyənləşdirilməsi. Bəzi hallarda bu tədbirlər kompleksini bərpa mərhələsində də istifadə etmək mümkündür.

3. Zərər çəkmiş iştirakçı-dövlətlər və digər maraqlı tərəflər, xüsusilə humanitar təşkilatlar, qeyri-hökumət təşkilatları və silahlı qüvvələr, həmçinin onlar arasında məlumat mübadiləsinin təmin olunması qeyri-maddi mədəni irsə mənfi təsirin miqyasının və xarakterinin, bu irsin fövqəladə halın yumşaldılması üçün istifadə imkanlarının müəyyənləşdirilməsi. Bu həmçinin yardım göstərilməsi üzrə əməliyyatların mövcud qeyri-maddi mədəni irsi tam əhatə etməklə onun mühafizəsini dəstəkləməsi üçün nəzərə alınmalıdır.

4. Qeyri-maddi mədəni irsi nəzərə almaqla fəlakətlərdən və ya münaqişələrdən sonrakı dövrdə, xüsusilə böhranlı vəziyyətlərdə fəaliyyət üzrə çoxşaxəli beynəlxalq mexanizmlər çərçivəsində tələbatların qiymətləndirilməsinin aparılması. Təbii fəlakətlərin və (və ya) hərbi münaqişələrin fəsadlarının onların qeyri-maddi mədəni irsinə təsirinin, həmçinin insan inkişafı üçün müvafiq iqtisadi itki və ziyanın, fəsadların qiymətləndiriıməsinə icmaların cəlb olunması.

Bərpa:

1. Əgər əvvəllər bunu etmək mümkün olmayıbsa icmanın tələbatlarının müəyyənləşdirilməsi.

2. Tələbatların müəyyənləşdirilməsinin nəticələri əsasında icmalara, qeyri-maddi mədəni irsə münasibətdə fəsadların yumşaldılmasına lazım olan potensialın möhkəmləndirilməsi məqsədi ilə mühafizə tədbirləri və planlarının işlənməsi və həyata keçirilməsini dəstəkləməyə yönələn resursların təqdim olunması. Belə qarşılıqlı fəaliyyəti bərpa mərhələsi boyu, növbəti mərhələ başlayana qədər, həmçinin humanitar yardımdan inkişafa meyilli fəaliyyətə keçid dövrünə qədər dəstəkləmək lazımdır.

3. İcmalar arasında və onların daxilində, o cümlədən köçkün şəxslərin və onları qəbul edən icmaların nümayəndələri arasında dialoqun, qarşılıqlı anlaşmanın və barışığın qeyri-maddi mədəni irsdən istifadə etməklə dəstəklənməsi.

Qeyd: UNESCO-nun İrsin Fövqəladə Fondu və Qeyri-Maddi Mədəni İrs Fondu (beynəlxalq fövqəladə yardım) daxil olmaqla fəaliyyəti fövqəladə hallarla bağlı olan müxtəlif fondların resursları və maliyyə dəstəyi hesabına təmin olunması. 2003-cü il Konvensiyasının müddəalarına əsasən siyahıların tərtibi mexanizmləri təbii fəlakətlər və (və ya) hərbi münaqişələrə hazırlığın, onlarla əlaqəli fəaliyyətlərin və onların fəsadların aradan qaldırılmasının təmin olunmasına kömək edən elementlərin (Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrsinin Reprezentativ siyahısı, Təcili Mühafizəsinə Ehtiyac Duyulan Qeyri-Maddi Mədəni İrs Siyahısı, həmçinin Qabaqcıl Mühafizə Təcrübəsi Reyestri) əyaniliyinin artırılması və tətbiqini dəstəkləmək, həmçinin beynəlxalq ictimaiyyətin bu və ya digər təbii fəlakətin və (və ya) hərbi münaqişənin

təsiri nəticəsində xüsusi təhlükə qarşısında qalan elementlərə diqqətini cəlb etmək (nominasiyanın Təcili Mühafizəyə Ehtiyacı olan Qeyri Maddi Mədəni İrs Siyahısına daxil edilməsini tətbiq etmək prosedurunu sürətləndirmək üçün, 2003-cü il Konvensiyasının Operativ Rəhbər Göstərişlərinin I.1 Fəslində U.6 meyarına baxın) üçün isitifadə oluna bilər.

Təlim və maarifləndirmənin yüksəldilməsi:

Mütəxəssislərin təlimlərə cəlb edilməsi, cəmiyyətin mədəni irsin saxlanılmasının əhəmiyyətinə dair məlumatlılığının artırılması çox vacibdir.

Yerli icmaların cəlb edilməsi:

Yerli sakinlər mədəni irsin saxlanılması prosesinə cəlb edilməlidirlər, çünki onlar bu irsin dəyərini, özəlliklərini hamıdan yaxşı bilirlər.

Bütövlükdə fövqəladə hallarda mədəni irsin qorunub saxlanılması kompleks yanaşma və bütün səviyyələrdə əməkdaşlıq tələb edən mühüm məsələdir.

**Fövqəladə hallar zamanı mədəni irsin mühafizəsində təlimlər və süni intellektin rolu.** Bu sahədə Smithsonian İnstitutunun, Şahzadə Klaus Fondunun təcrübəsi xüsusilə diqqəti cəlb edir. 2015-ci ildə UNESCO-nun işləri üzrə Niderland Milli Komissiyası tərəfindən və 2016-cı ildə Smithsonian İnstitutu tərəfindən təşkil olunan təlimlər sonradan bu təcrübənin dünyanın bir çox yerlərində həyata keçirilməsinə səbəb olub. Artıq dünyanın 70-dən çox ölkəsində yüzlərlə mədəni "təcili yardım" şəbəkələri fəaliyyətdədir.

Ümumilikdə bu təlimlər iştirakçılara aşağıdakı bilikləri öyrədir:

- Fövqəladə hallarda mədəni irs üzrə risklərin qiymətləndirilməsi və idarəetməsi.
- Mədəni irslə bağlı dəyərlər və fəlakətlərin (təbii və texnogen) bu dəyərlərə təsirinin öyrənilməsi.
- Öz təşkilatınızda təbii fəlakət hallarında mövcud planların yaxşılaşdırılması.
- Təbii fəlakət risklərinin azaldılması və onlarla mübarizənin yaxşılaşdırılması üçün preventiv tədbirlərin görülməsi.
- müxtəlif mədəni materialları mühafizə edin, xilas edin və sabitləşdirin.
- Mədəni irsə təsir göstərən böhran hallarında effektiv fəaliyyətlərin həyata keçirilməsi üçün mübarizə qrupunun təlimatlandırılması və idarə olunması.
- Fövqəladə vəziyyətlərlə mübarizədə iştirak edən müxtəlif subyektlərlə, o cümlədən kütləvi informasiya vasitələri ilə uğurlu ünsiyyət.
- Fövqəladə hallarda mədəni irs təşkilatlarına kömək edə bilən müvafiq proqram və xidmətlərin müəyyənləşdirilməsi.
- Mədəni irsə ilk yardımın zərər çəkmiş icmaların bərpasına necə kömək etdiyini anlamaq və onun milli planlaşma çərçivəsində yerini müəyyənləşdirmək.

Böhran zamanı mədəni irsə ilk yardım üzrə maraqlı təcrübələrdən biri Niderlandda baş tutub. 2018-ci ildə Brabante şəhərində Avropa mədəni irs ilinin şərəfinə keçirilən "Böhran zamanı mədəni irsə ilk yardım" (FAC) adlı aksiyada təhlükə altında olan mədəni irsin mühafizəsi, sabitləşdirilməsi, təsirin qarşısının alınması, təhlükəsiz təxliyə üzrə modulları daxil idi. Burada 24 bərpaçı, arxeoloq, arxiv işçisi, həmçinin humanitar yardım göstərməklə məşğul olan şəxslər, o cümlədən yardım göstərilməsi üzrə əlaqələndiricilər və hərbçilər iştirak ediblər. Kursun yekununda dinləyicilər fövqəladə halların modelləşdirilməsi üzrə irimiqyaslı təlimlərdə bacarıqlarını tətbiq ediblər.

2022-ci ildə Antekeredə (İspaniya) keçirilmiş təlimlər isə zəlzələ nəticəsində şəhər muzey-

ində yanğın və arxivdə subasma zamanı çoxmərhələli fəaliyyətin təşkilinə həsr olunub. Buraya həmçinin mədəni irsin qiymətləndirilməsi və xilası üzrə yardım bölmələri də daxil idi. Təlimlərdə yanğınsöndürənlər, mülki müdafiə, sanitar xidmətlər, polis, bərpaçılar və konservasiya üzrə mütəxəssislər iştirak ediblər. Mədəni irs sahəsində fövqəladə hallarla mübarizə üzrə informasiya sistemlərinə əsaslanan yeni alət ("Mission Track") modelləşdirmə zamanı incəsənət əsərlərinin mühafizəsi üzrə qruplar arasında əlaqənin və nəzarətin təşkili zamanı istifadə olunub.

"Mission Track" proqram təminatı müxtəlif zədələnmə dərəcəsi olan 10 incəsənət əsəri (heykəl, kətan, metal hissələr, kağız və kitablar) modelindən ibarət mədəni irs obyektlərinin (UB) qiymətləndirilməsi və xilası üzrə bölmədə istifadə üçün uyğunlaşdırılıb. UB komandası mobil telefonlar vasitəsi ilə vəziyyəti izləyib, iki mərhələdə: bərpa və çeşidləmə üzrə həyata keçirilən işlərin göstəricilərinə nəzarət ediblər. Hər müdaxilə qrupu mobil telefonları vasitəsilə 2-3 incəsənət əsərini necə xilas etməli olduğunu addım-addım oxumaqla həyata keçirib.

Nəticələrin təhlili hər incəsənət əsərinin xilası, çeşidlənməsi, incəsənət əsərlərinin və komandalarının xilas işləri zamanı coğrafi ərazisinin qeydə alınması, həmçinin fövqəladə hallarda və ya gələcək təlimlərdə təbii fəlakətlər zamanı fəaliyyət planlarının qiymətləndirilməsinə və yaxşılaşdırılmasına imkan verir.

"Mission Track" alətləri incəsənət əsərləri haqqında mühüm məlumatdan ibarət idi, burada əsərin fotoşəkli, muzeydə və ya arxivdə yerləşdiyi yer, ölçüsü və çəkisi, onun emalını həyata keçirəcək insanların minimum sayı, təxliyə müddəti və marşrutu, həmçinin əsərlə işləməyə dair tövsiyə yerləşdirilib.

"FENIX" və "RESISILIENT TOURISM" - İspaniyada maddi və qeyri-maddi mədəni irsin yanğınlar və təbii fəlakətlər zamanı idarə olunması və təhlükənin aradan qaldırılmasında tətbiq olunan yeni texnologiyaların işlənməsinə həsr edilmiş tədqiqat layihələridir. Mədəni irsin təbii fəlakətlərdən mühafizəsi mədəni irs sahəsində İspan Milli Tədqiqatlar Planına daxil edilmiş prinsipdir. Belə ki milli irsin qorunması şəhər və kənd rayonlarında mühüm gəlirlərdən birinin saxlanılması, həmçinin dayanıqlığın yaxşılaşdırılması üsuludur. Bu layihələr qeyd edilən çərçivələrdə preventiv konservasiyanın alətlərinin işlənməsi və qərar qəbuletmə modellərinin idarə olunması üzrə qabaqcıl təcrübənin işlənməsində iddiaçıdırlar.

Mədəni irsdə qəzaya reaksiyanın modelləşdirilməsi incəsənət əsərlərinin müxtəlifliyi, onların ölçü və materiallarının nəzərə alınması nöqteyi-nəzərindən çox çətin məsələdir, onların köhnə binalarda olması isə məsələni daha da mürəkkəbləşdirir. Ona görə də fövqəladə hallarda fəaliyyət proqramları tərtib olunarkən mədəni irsin xilasına dair müxtəlif ssenarilər işlənməli, standartlar müəyyənləşdirilməli və protokollar hazırlanmalıdır.

İncəsənət əsərlərinin qəza-xidmət təlimlərinin keçirilməsi mədəniyyətinin təbliği onların qorunub saxlanılmasında mühüm məqamdır. Bu təlimləri ən azı ildə bir dəfə keçirmək lazımdır. Təlimlər mədəniyyət müəssisələri ilə güc strukturlarının birgə fəaliyyəti, rolları, qarşılarında duran vəzifələri müəyyənləşdirməyə və sistemləşdirməyə imkan verəcək və mədəni irs nümunələrinin mühafizəsində əlaqələndirməni təmin edəcək. "Mission Track" kimi proqram təminatlarının coğrafi-informasiya sistemləri ilə birləşdirilməsi isə fövqəladə hallarda mədəni irsin xilasını sürətləndirə bilər. Eyni zamanda təxliyə prosesini izləməyə və abidənin qorunmasına mütəxəssis müdaxiləsini vaxtında yerinə yetirməyə şərait yaradar.

Bu elmi-tədqiqat layihələrində (FENIX və RESILIENT-TOURISM) ilk dəfə mobil texnologiyalara əsaslanan, fövqəladə halların idarə olunması üçün nəzərdə tutulan proqram təminatından istifadə olunub. Qeyd edək ki, FENIX və RESILIENT-TOURİSM layihələrinin tədqiqatçıları

Seviliya şəhərində yerləşən Pablo de Olavide Universitetinin Fiziki, kimyəvi və təbii sistemlər kafedrasının əməkdaşları Pilar Ortis və Laura Torodur (Universidad Pablo de Olavide, no date).

"Süni intellekt və daşınar və daşınmaz mədəni irs obyektlərində yanğınlar və təbii fəlakətlərin qarşısının alınması və onların idarə olunmasında tətbiq olunan yeni texnologiyalar" layihəsinin əsas məqsədi coğrafi informasiya, idarəetmə təcrübəsindən irəli gələn, süni intellekt əsaslı protokolların tədqiqi və işlənməsidir. Mədəni irsin mühafizəsi və saxlanılmasının ssenariləri bir neçə təhlükəni ümumiləşdirərək yerli hakimiyyət orqanları və preventiv konservasiya mütəxəssislərinə qərarların qəbul edilməsində prioritet strategiya və mümkün fəlakətlərdə qəzaya hazırlıqları müəyyənləşdirməkdə kömək edəcək.

Tarixi şəhərlər, onların mədəni irsi və incəsənət əsərləri iqlim dəyişmələri, müharibələr, subasmalar, daşqınlar və s. dramatik hadisələrin fəsadları ilə üzləşirlər. Uzun müddət çəkən quraqlıq dövrü də yanğın və ətraf mühitin çirklənməsi risklərini artırır. Mədəni irs həmçinin demoqrafik yerdəyişmələr, turizm və ya sosial sıçrayışlardan yaranan risklərlə üzləşə bilir. Proqramların üstünlüyü abidələrin real həyatını, uzunmüddətli ekoloji proseslər və qısamüddətli təbii/antropogen fəlakətlərin nəticələri ilə müqayisə etmək və onu fənlərarası, multiböhran yanaşma ilə nəzərdən keçirmək imkanındadır. Bu isə çoxsaylı risklərin kompleks qiymətləndirməsinə imkan verməklə daşınar və daşınmaz mədəni irsi fiziki və sosial dəyərləri qoruyaraq, abidələrin və ya incəsənət əsərlərinin məhvinin qarşısını alaraq, turizmdən asılı olan yerli ticarət və şirkətləri böhrandan xilas edərək, mədəni irsdən istifadə imkanını saxlayaraq mühafizə etməyə şərait yaradır.

"FENIX" müxtəlif fənlər üzrə aparılan tədqiqatlara və əldə olunan biliklərə əsaslanan, onları ümumi, transmilli, fənlərarası, təşkilatlararası, refleksiv və innovativ şəkildə birləşdirən bir layihədir. Buraya 15 ixtisas üzrə mütəxəssis, o cümlədən memarlar, inşaat mühəndisləri, İKT üzrə mütəxəssislər, dövlət idarəetmə strukturlarının təmsilçiları və humanitar elmlər üzrə nümayəndələr cəlb olunaraq mədəni irsi kimyəvi, bioloji, ekoloji, riyaziyyat, informatika, hesablama texnikası, incəsənət tarixi, coğrafiya, bərpa/konservasiya və digər sahələr üzrə yaradılan, DELPHİ metodologiyasına əsaslanan alətlərlə bağlı öz fikirlərini söyləyəcəklər. Pilot layihə üzərində iş davam edir.

Layihə çərçivəsində kənd və şəhərlərdə yerləşən daşınar və daşınmaz mədəni irslə bağlı aşağıdakı istiqamətlər üzrə layihələrin hazırlanması nəzərdə tutulub:

- təbii fəlakətlər (subasmalar, daşqınlar, yanğınlar, zəlzələlər və s.) baş verən zaman zərərin minimuma endirilməsi üçün yerli və regional mühafizəyə dair pilot planlar;
- preventiv konservasiya və bərpa prioritetlərini müəyyənləşdirmək üzün DELPHI metodologiyasına və süni intellektə əsaslanan protokol və alətlərin hazırlanmasıdır. Qeyri-səlis məntiq əsasında (Xfuzzy 3.3) işlənmiş bu alətlərə riskin və dayanıqlığın qiymətləndirilməsi daxildir.
- mədəni irs rəhbərləri və xilasedici qüvvələrlə birlikdə işlənən fövqəladə halların nəticələrinin aradan qaldırılması və qəzadan sonrakı tədbirlər üzrə fəaliyyət planı.
- Hamıya əlçatan olan fənlərarası platforma: iqlim dəyişmələrinin nəticələri, ekoloji fövqəladə hallar və hərbi münaqişələrin mədəni irsə təsirinin beynəlxalq observatoriyası.

Layihə çərçivəsində hazırlanmış növbəti süni intellekt əsaslı tətbiq isə "Art-Risk" adlanır. "Bina irslərinin preventiv konservasiyasında tətbiq olunan süni intellekt" (Art-Risk) layihəsinin əsas məqsədi şəhər mərkəzlərində süni intellekt əsaslı modellər vasitəsi ilə irsin preventiv konserva-

siyası üçün kompüterləşdirilmiş alət yaradılmasını tədqiq etmək və onu bərpa və konservasiya ilə məşğul olan təşkilatlar, şirkətlər üçün əlçatan olmasını təmin etməkdir.

Onun işlənməsində daşınmaz tarixi irsin mühafizəsi və qorunub saxlanılması sahəsində ixtisaslaşmış müxtəlif sahələri: kimya, memarlıq, arxeologiya, bərpa, sənətşünaslıq, geologiya, biologiya, riyaziyyat və informatika - təmsil edən komanda iştirak edir, onlar tək-tək binaların həssaslığını və risklərini təhlil etmək imkanı verən yeni təhlil üsulunu işləyib hazırlayacaqlar.

Layihənin yeniliyi ödənişsiz istifadə olunacaq proqram təminatı vasitəsi ilə torpaqdan istifadə, şəhərsalma və tarixi irslə davranışla bağlı qəbul olunan qərarların qiymətləndirilməsini həyata keçirə biləcək, ilk dəfə gördükləri işə mədəni irs, memarlıq, şəhərsalma obyekti kimi baxmaqla yanaşı, onu elmi meyarlar əsasında ətraf mühit, sosial-demoqrafik vəziyyət prizmasından təhlil edəcək və qəbul olunan qərarlar mədəni irs elementlərinin məhvolma riskini minimuma endirəcək.

Layihə çərçivəsində qeyri-səlis məntiq əsasında (Xfuzzu 3.3) yeni proqnozlaşdırma modeli işlənəcək, bura ilk dəfə binanın istifadə dərəcəsi ekoloji risklər və iqlim dəyişmələri, struktur risklər və abidələrin həyatı haqqında tarixi məlumatlar, tarixi dövrlər üzrə binaya dəyən ziyanın dərəcəsi və ilkin həssaslıq matrisası (massiv-klaster) daxil ediləcək. Bu sistem İspaniyada geniş yayılmış iki bina tipi (kilsələr, divarlar və bastionlar) üzərində sınaqdan keçirilərək qiymətləndiriləcək. Bu iki tip modelin sınaqları müxtəlif laboratoriyalarda kortəbii diaqnostika üsulu ilə müstəqil işçi qrupların qərarının proqnoza nə dərəcədə yaxın olması nöqteyi-nəzərindən yoxlanılacaq.

Gözlənilən nəticə - abidənin həssaslığı, risk amilləri və tarixi parametrlərlə insan düşüncələri arasında qarşılıqlı əlaqələri qeyri-səlis çoxluqlar nəzəriyyəsinin köməyi ilə təqribi ifadə etməyə imkan verəcək yeni süni intellekt proqramıdır. Bütün nəticələr ödənişsiz istifadə üçün nəzərdə tutulan tətbiqə əlavə olunacaq və geniş istifadəçi kütləsinə, mədəni irsə məsul qurumlara, mədəni irsin bərpası ilə məşğul olan şirkətlərə əlçatan olacaq. Sistem, eyni zamanda istifadəçilərlə əks əlaqəni nəzərdə tutur, bu isə tətbiqin təkmilləşdirilməsinə və yeni məlumatlarla zənginləşdirilməsinə kömək edəcək.

Layihənin gələcəkdə müxtəlif ölkələrin tarixi irsinin idarə olunması və qorunub saxlanılması sahəsində genişləndirilməsi və bu işdə digər ölkələrdən ekspert və mütəxəssislərin cəlb olunması nəzərdə tutulur.

"RESILIENT TOURISM" layihəsi fövqəladə halların mədəni irs sahəsinə təsirinin qarşısının alınması, fəsadlarının aradan qaldırılması və pandemiya şəraitində fövqəladə halların fəsadlarının aradan qaldırılmasına həsr olunub. "RESILIENT TOURISM" (Davamlı turizm) tarixi irsin əvvəllər işlənib hazırlanmış süni intellekt alətlərinin, coğrafi-informasiya sistemlərinin (CİS), lazımi idarəetmə təcrübəsinin (GMP) və informasiya-kommunikasiya texnologiyalarının (İKT) dəstəyi ilə qorunub saxlanılması üzrə protokolların yerinə yetirilməsinə istiqamətlənib. Təhlükəsiz mədəni mərkəz kimi Əndəlusda mədəni irsin effektiv saxlanılması və möhkəmləndirilməsinə dəstək, pandemiya, risklərin idarəetmə şərtləri də bu tətbiqə daxil edilib.

Layihə Pablo de Olavide Universiteti ilə Valensiya Konservasiya, Bərpa və Tədqiqatlar İnstitutunun, Əndəlus İncəsənət Kollecinin tanınmış məzun və ekspertləri, Mədəniyyət Nazirliyi və Əndəlus Tarixi İrs Xuntası ilə birlikdə işlənib hazırlanıb. Tarixi turizm ətrafında innovativ ekosistemin yaradlmasına, biliklərin toplanması və ötürülməsinə istiqamətlənib. Pandemiya və ya mümkün təbii fəlakətlərdə irs obyektlərinin saxlanılmasının iqtisadi və ekoloji nöqteyi-

nəzərdən birləşdirən layihə onun davamlı inkişafının yeni modellərinin hazırlanmasına üstünlük verir.

Bu protokolların məqsədli auditoriyasına qərar qəbuletməyə məsul olan regional/yerli menecerlər, sahibkarlar daxildir. Qərarlar əsasən bitkin preventiv konservasiya proqramlarının və fövqəladə vəziyyətdə fəaliyyətin təkmilləşdirilmiş modellərinin qəbuluna əsaslanır. Məqsəd süni intellekt, lazımi idarəetmə təcrübəsi, coğrafi-informasiya sistemləri və informasiya-kommunikasiya texnologiyalarının köməyi ilə fövqəladə hal vəziyyətində daşınan və daşınmaz mədəni irsin, bələdiyyələrdə irsin ziyarətinə əsaslanan turizmin mühafizəsinə yardımçı olan protokollar işləyib hazırlamaqdır. Bunun üçün mədəni irsə təhlükə törədən bir neçə riski əhatə edən ssenarilər də bura daxil edilib.

Fövqəladə hallara qarşı protokollardan irsin idarəetməsinə məsuliyyət daşıyan orqanlar istifadə edə bilərlər. Onlar bununla təhlükəsiz turizmin saxlanılmasına və sosial inkişafa dəstək göstərəcəklər. Eyni zamanda mədəni irs sosial-mədəni və turizm resursu kimi konservasiya və bərpa üzrə mütəxəssislər, irsin qorunub saxlanılması ilə məşğul olan memarlar, mühəndislərə yeni iş yerlərinin yaradılmasına töhfə verəcək, həmçinin preventiv konservasiyaya sərmayə və fövqəladə hallara hazırlıqla bağlı xərclərin azaldılmasına səbəb olacaq.

Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 19 mart tarixli 530 №-li Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt Strategiyası" ölkəmizdə mədəni irsin qorunub saxlanılması, fövqəladə hallara və təbii fəlakətlərə hazırlıq, onların aradan qaldırılmasında, milli kimliyimizi nümayiş etdirən mədəni irsimizin tədqiqi, təbliği və təşviqində, dünya muzeylərində, şəxsi kolleksiyalarda saxlanılan və başqa xalqların adına çıxılan mədəni irs nümunələrimizə öz adının qaytarılmasına dair yeni alətlərin hazırlanmasında böyük imkanlar yaradacaq.

**Nəticə.** Vətənimizin coğrafi, geosiyasi mövqeyi, zəngin mədəni irsi əsrlərdən nəsillərə yadigar qalan maddi və qeyri-maddi mədəni irsimizin öyrənilməsi, təbliği və gələcək nəsillərə çatdırılmasında bütün mədəniyyət obyektlərinin məlumat bazalarının hazırlanması sahəsində görülən işləri sürətləndirməyi, ətraf mühitə təsir sənədi, fövqəladə hallara hazırlıq, risklərin idarə olunması, bərpa və konservasiya, fəsadların aradan qaldırılması, mədəni irsə yaradıcı sənaye subyekti kimi yanaşaraq ondan planlı istifadənin vacibliyini bir daha gündəmə gətirir. Hər daşının altında tarix yatan Azərbaycanda bu işə kompleks yanaşmanı həyata keçirmək, peşəkarlarla həvəskarları bir araya gətirmək, müxtəlif sahələrdən olan tələbələrə tarixi missiyada iştirak etmək üçün şərait yaratmaq vacibdir. Milli mənliyimizin, milli kimliyimizin aynası olan mədəni irsimizi, kitabxanalarda, muzeylərdə, əlyazmalar fondunda, şəxsi kolleksiyalarda saxlanılan əsərlərin hər birinin qeydiyyatı və qorunması isə zənnimizcə bir vətəndaşlıq borcudur.

**Ədəbiyyat:**

Blue Shield. (1999). The Red Cross of preservation. Preservation Access: Intern Newsletter, 7, 3-4.

Escobar, A. (2004). Preparing for disaster: A new education initiative in museum emergency preparedness and response. Studies in Conservation, 19(2), 20-22.

Jokilehto, J. (2000). ICCROM's involvement in risk preparedness. Journal of the American Institute for Conservation, 39(1), Article 14. http://cool.conservation-us.org/jaic/articles/jaic39-01-014.html

Menegazzi, C. (2008). Museums emergency programme.

ICCROM. (1997). The Kobe-Tokyo Declaration on Risk Preparedness for Cultural Heritage. https://www.iccrom.org/sites/default/files/ICCROM_17_RiskPreparedness_en.pdf

UNESCO. (1983). Convention and recommendation concerning the protection of the cultural heritage. https://whc.unesco.org/archive/convention-en.pdf

UNESCO. (2003). Declaration concerning the intentional destruction of cultural heritage. UNESCO. General Conference, 32nd, 2003 [1424 ]https://unesdoc.unesco.org/ark:/48223/pf0000133874

Roberts, B. O., & Hutchins, J. K. (2009). Dısaster Rısk Managementfor Museums (L. Macdonald, Ed.; A. Dzoni-Sopov, Illus.; Russian-English ed.). UNESCO Office in Uzbekistan. https://unesdoc.unesco.org/ark:/48223/pf0000375637

UNESCO. (2015). Reinforcement of UNESCO's action for the protection of culture and the promotion of cultural pluralism in the event of armed conflict (38 C/49). UNESCO. General Conference, 38th, 2015 [945] https://unesdoc.unesco.org/ark:/48223/pf0000235186

UNESCO. (2017). Strategy for the reinforcement of UNESCO's action for the protection of culture and the promotion of cultural pluralism in the event of armed conflict (39 C/57). UNESCO. General Conference, 39th, 2017 [892] https://unesdoc.unesco.org/ark:/48223/pf0000259805

UNESCO. (2018). Operational directives for the implementation of the Convention for the Safeguarding of the Intangible Cultural Heritage (Adopted at the 2nd session, 2008; amended at the 3rd session, 2010; 4th session, 2012; 5th session, 2014; 6th session, 2016; and 7th session, 2018). UNESCO. https://ich.unesco.org/doc/src/ICH-Operational_Directives-7.GA-PDF-EN.pdf

Universidad Pablo de Olavide. (no date). FENIX Project: Artificial intelligence and new technologies applied to the prevention and management of fires and natural disasters in movable and immovable cultural heritage. Universidad Pablo de Olavide. https://www.upo.es/investiga/art-risk-en/proyecto-fenix

Богуславский, М. М. (1979). Международная охрана культурных ценностей. Международные отношения.

Гардинер, Г. (1997). План действий на случай чрезвычайной ситуации и готовность к ним. Museum, 192, 40-44

ЮНЕСКО. (1999). Конвенции и рекомендации ЮНЕСКО по охране культурного наследия. Минск.

Göndərildi: 08.08.2025
Qəbul edildi: 22.08.2025
Təqdim etdi: Gülşən Hüseynova
İstinad: Hüseynova, G. (2025). Fövqəladə hallar zamanı mədəni irsin mühafizəsi. F. Xəlilli (Hazırlayan). Mədəni İrs Beynəlxalq Ustad Məktəbi: Tədris vəsaiti. (s. 185-204). Bakı: AFPoliqrAF. https://doi.org/10.30546/978-9952.2025.1185

# MƏDƏNİ İRS BEYNƏLXALQ USTAD MƏKTƏBİ

## TƏDRİS VƏSAİTİ

Hazırlayan:
Dr. Fariz XƏLİLLİ

BAKI - 2025